

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 164 (23.576)

29 sentyabr 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Dövlətimizin başçısı iclasda çıxış edərək Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribat törətməsindən, işğalçılıq siyasətinin davam etdirilməsindən danışıb. Ölkəmizin başçısı qeyd edib ki, Azərbaycan xalqına müraciətində bu təxribatın səbəbləri və son müddət ərzində Ermənistanın çirkin addımları haqqında geniş məlumat verib. Qeyd olunub ki, bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan bizim mövqelərimiz, eyni zamanda yaşayış məntəqələrimiz, kəndlərimiz atəşə tutulub, mülki əhali arasında itkilərimiz var. Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq hazırda uğurlu əks-hücum əməliyyatı keçirir. Ölkə başçısı əks-hücum nəticəsində Azərbaycanın bir neçə yaşayış məntəqəsinin işğalçılardan azad olunduğunu deyərək bu münasibətlə Azərbaycan xalqını təbrik edib.

Sonra Müdafiə naziri Zakir Həsənov məruzə edərək düşmən təxribatının qarşısını almaq məqsədilə aparılan əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xəttinin yarıldığını, yeddi kəndin işğaldan azad olunduğunu bildirib.

Prezident İlham Əliyev əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edib. Sonda Təhlükəsizlik Şurasının digər üzvləri müzakirədə iştirak ediblər.



# Naxçıvanda “Arıçılıq məhsulları – bal festivalı” keçirilib





Naxçıvanda arıçılığın qədim ənənələri vardır. Bu gün də muxtar respublikada arıçılıq inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 noyabr





2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası bu sahəyə marağı artırmış, yeni arıçılıq təsərrüfatları yaranmış, festival ənənəsi formalaşmışdır.

Sentyabrın 26-da “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində beşinci “Arıçılıq məhsulları – bal festivalı” keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivalda iştirak etmişdir.

Festival açıq elan edildikdən sonra Naxçıvan Dövlət Universitetinin Baytarlıq təbabəti kafedrasının baş müəllimi, biologiya üzrə fəlsəfə doktoru Əli Tahirov çıxış edərək demişdir ki, Naxçıvanda arıçılıq son 20 ildə geniş surətdə inkişaf etdirilməyə başlanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə arıçılığın inkişafı sahəsində mühüm tədbirlər görülmüş, arı ailələrinin sayı artmışdır. Hazırda muxtar respublikada arı ailələrinin sayı 99 mindən çoxdur. Arıçılığın inkişafı, ilk növbədə, onun yem bazası ilə əlaqədardır. Muxtar respublikanın florası nektarlı bitkilərlə zəngindir. Belə ki, Azərbaycanda mövcud olan 400 növ balverən bitkinin əksəriyyəti qədim diyarımızda mövcuddur.



Qeyd olunmuşdur ki, “Arıçılıq məhsulları – bal festivalı”nda təkcə arıçılıq məhsullarının nümayişi və satışı deyil, eyni zamanda burada təcrübə mübadiləsi həyata keçirilərək damazlıq işinin təşkili, məhsuldarlığın artırılması və xəstəliklərə qarşı mübarizə tədbirləri haqqında arıçılar arasında fikir mübadiləsi aparılır.

Baxış zamanı məlumat verilmişdir ki, festivala muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən 289 arıçı tərəfindən 14 tondan artıq süzmə, 2 tondan artıq şan bal, arı südü, mum, vərəmum, çiçək tozu və güləm çıxarılmışdır. Naxçıvan balı öz dadı, ətri, görünüşü, həmçinin bir sıra keyfiyyət göstəricilərinə görə Azərbaycanda, eyni zamanda qonşu ölkələrdə yaxşı tanınır və yüksək qiymətləndirilir. Son illər Naxçıvanda arıçılıq sahəsində aparılan elmi araşdırmaların həcmi çoxalmış, bu sahəyə dair kitab və dərsliklər nəşr olunmuşdur.

Ardı 2-ci səhifədə






Balla yanaşı, vərəmum, çiçək tozu, güləm, arı südü və digər arıçılıq məhsulları yüksək tibbi əhəmiyyətə malikdir.

Naxçıvan Dövlət Universitetinin müəllimləri polenli nektarlı bitkilərin herbariləri, yeni nəsil arı pətəkləri, ana arı südünü almaq üçün vasitə, şansız arı paketi, ana arı sürfəköçürmə aləti və arı südü çərçivəsi haqqında ətraflı məlumat vermişlər.

Ali Məclisin Sədri arıçılarla söhbət etmiş, bal almış, onların qayğıları ilə maraqlanmışdır.

Arbatan kənd sakini Tahir Ələkbərov demişdir ki, arıçı sahibkarların pulsuz dərmanla təmin edilməsi, hər bir arı ailəsinə görə subsidiyanın və arıçılara güzəştli kreditlərin verilməsi bu sahənin inkişafına geniş imkanlar açmışdır. Festivallarda məhsullarımızı rahat satırıq. Eyni zamanda təsərrüfat adamlarının əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Bu da məsuliyyətimizi artırır, daha həvəslə işləyirik.

Günnüt kəndindən olan arıçı, 2019-cu ildə keçirilən "Arıçılıq məhsulları – bal festivalı"nın qalibi olmuş Fikrət Məmmədov




minnətdarlıq edərək demişdir: "Bu gün arıçılar üçün hər cür şərait yaradılmışdır. Günnüt kəndinin arıçıları da bu şəraitdən səmərəli istifadə edərək kənd təsərrüfatı üçün əhəmiyyətli olan bu sahəni inkişaf etdirməyə çalışırlar. Göstərilən qayğı sayəsində Naxçıvan balının şöhrəti geri qaytarılıb. Həm zəngin bitki örtüyü, həm də təbii şərait Günnüt kəndində də arıçılıq üçün geniş



imkanlar açır".

Arıçılar Birliyinin sədri Etibar Məmmədov, Yuxarı Qışlaq kəndindən olan Əsəd Hacıyev, Çalxanqala kənd sakini Şəmsi Nəcəfov və Xıncab kənd sakini Habil Abbasov, Heydərabad qəsəbə sakini Zakir Zamanov, Əlincə kənd sakini Balabəy Allahverdiyev və Ərəfsə kənd sakini Aqil Qələndərov, Kotam kənd sakini Anar Həsənov və Vənənd kənd sakini Yaqut Babayeva minnətdarlıq edərək demişlər ki, arıçılığa göstərilən dövlət qayğısı sayəsində muxtar respublikada arıçılıq özünün inkişaf dövrünü yaşayır. Festivalların keçirilməsi həm məhsul satışı, həm də arıçılar arasında təcrübə mübadiləsi aparılması baxımından əhəmiyyətlidir. Yaradılan şərait nəticəsində təsərrüfatlarımızda olan arı ailələrinin sayını ikiqat artırmışıq. Bu da tələbatdan artıq bal istehsal etməyimizə və bazara keyfiyyətli məhsul çıxarmağımıza imkan vermişdir.

Festivalda baldan hazırlanan müxtəlif şirniyyatların, eləcə də dulusçuluq, ağac-



işləmə, tikmə nümunələrinin, ana arı yetişdirmə qutularının, termoplastik və kötük pətəklərin, ana arı təcridedici qurğuların, arıçıların hazırladıqları müxtəlif əl işlərinin də nümayişi və satışı həyata keçirilmişdir.

Babək rayon Gərməçataq kənd sakini Mətləb Quliyev öz təsərrüfatının inkişafından danışaraq demişdir ki, indi bazarlarda kənd adamlarının istehsal etdikləri yerli məhsullara üstünlük verilməsi, həm də festivalların keçirilməsi məhsulumuzun daha çox satılması ilə nəticələnir. Beş il bundan əvvəl gündəlik cəmi iki kiloqram bal satırdımsa, hazırda 20-30 kiloqram satıram. Bu da təsərrüfatımı genişləndirməyə imkan verir.

Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestri və Rəqs qrupu festival iştirakçılarına musiqi nömrələri təqdim etmişlər.

Ali Məclisin Sədri arıçılığın inkişafı ilə bağlı qəbul olunmuş Dövlət proqramından irəli gələn vəzifələrin icrası, arıçılara kreditlərin verilməsinin davam etdirilməsi, onların təkliflərinin nəzərə alınması, Naxçıvan Dövlət Universitetində dərman bitkilərindən qarışıqların hazırlanması və bitki herbarilərinin çoxaldılması barədə tapşırıqlar vermişdir.

Festival sentyabrın 27-də də davam etmiş, arıçılar arasında "Ən yaxşı arıçılıq məhsulları – bal" nominasiyası üzrə müsabiqə keçirilmişdir.

* * *

Həmin gün Ali Məclisin Sədri "Naxçıvanqala" Tarix-Memarlıq Abidəsində aparılan bərpa işləri ilə tanış olmuş, müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Nüsnüs kəndində infrastruktur yenilənir

***Bu ilin mart ayından başlayaraq Ordubad rayonunun Nüsnüs kəndində də kompleks quruculuq işlərinə başlanılıb. Belə ki, hazırda adıçəkilən yaşayış məntəqəsində məktəb binası, kənd və xidmət mərkəzləri tikilir. Bundan başqa, kəndi rayon mərkəzi ilə əlaqələndirən yol və üzərindəki körpülər də yenidən inşa olunur.***





Təhsilin səviyyəsini yüksəltmək məqsədilə kənddə əsaslı surətdə yenidən qurulan məktəb binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaqdır. 414 şagird yerlik məktəb binasının və üçmərtəbəli kənd və birmərtəbəli xidmət mərkəzlərinin tikintisini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər.

Tikintidə yerli inşaat materiallarından istifadəyə üstünlük verilib. Onu da vurğulayaq ki, əsaslı surətdə yenidən qurulan məktəb binasında geniş və işıqlı 23 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter, 2 elektron lövhəli sinif, şahmat və müəllimlər otaqları, kitabxana, bufet, yenidən inşa olunan idman zalı, açıq idman qurğuları müəllim və şagirdlərin istifadəsinə veriləcək, binada müasir istilik sistemi quraşdırılacaq.

Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının ərazi ilk partiya təşkilatı, ATS, poçt, bələdiyyə, baytarlıq məntəqəsi, mədəniyyət evi, kitabxana, polis sahə məntəqəsi və həkim ambulatoriyası üçün müasir şərait yaradılacaq.

Xidmət mərkəzinin tikintisində də işlər sürətlə davam etdirilir.

**Abbas SEYİD**

*Babək Rayon Rabitə İdarəsi tərəfindən cari ilin ötən dövrü ərzində sakinlərə nümunəvi rabitə və internet xidmətləri göstərilib, yeni texnologiyaların tətbiqi, inkişafı istiqamətində işlər davam etdirilib.*

## 822 abonent genişzolaqlı internetlə təmin olunub



2020-ci il avqustun 12-də Naxçıvan Muxtar Respublikasında 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirədə Rabitə və Yeni Texnologiyalar Nazirliyinə tapşırılıb ki, yaşayış məntəqələrində sakinlərə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsinə diqqət artırılsın, mal-material ehtiyatı yaradılsın. Həmin tapşırıqların icrasına uyğun olaraq Babək Rayon Rabitə İdarəsi tərəfindən mal-material ehtiyatının yaradılması, avtomat telefon stansiyalarında istismar olunan qurğulara, o cümlədən generatorlara, akkumulyatorlara və xətt təsərrüfatına texniki baxışın keçirilməsi, aşkar olunan müxtəliftutumlu yararsız kabel və dayaqların yeniləri ilə əvəz olunması istiqamətində işlər davam etdirilir.

Ötən dövr ərzində muxtar respublikada fiber-optik xətlərin çəkilməsi də diqqətdə saxlanılıb, rayon Rabitə İdarəsi tərəfindən Naxçıvan Muxtar Respublikası Süni Mayalanma Mərkəzinə 700 metr fiber-optik xətt çəkilib, rayonun Şıxmahmud kəndində istismar olunan fiber-optik kabeldə yaranmış nasazlıqlar aradan qaldırılıb.

Cari ilin yanvar-avqust ayları ərzində rayon ərazisində 210 yeni sabit şəbəkə telefon xətti çəkilib, 822 abonent genişzolaqlı ADSL (Asimmetrik Rəqəmsal Abunəçi Xətti) texnologiyası vasitəsilə internetlə təmin olunub. İstismar müddəti ərzində rabitə və abunə qurğularında yaranmış nasazlıqların aradan qaldırılması istiqamətində operativ və zəruri tədbirlər həyata keçirilib, sıradan çıxmış avadanlıqlar yeniləri ilə əvəz olunub.

***Naxçıvan Muxtar Respublikası***
***Rabitə və Yeni Texnologiyalar Nazirliyinin***
***mətbuat xidməti***

*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatına görə, sentyabr ayının 27-də səhər saat $6^{00}$ radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini, yaşayış məntəqələrimizi, mülki əhalini hədəf alaraq minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutub.*

# Yeni zəfərlər ümidi ilə...



Yaralılarımız və şəhidlərimiz var. Düşmənlərimiz həmin gün səhər saatlarında Azərbaycan torpaqlarında əyləşib yeni əraziləri işğal etmək niyyəti ilə xalqımıza gözdağı verməyə çalışdılar. Düşmən yenə də qarşısında 1990-cı illərdəki dövlətçilik, milli həmrəylik, iqtisadi və hərbi cəhətdən zəif Azərbaycanın olduğunu zənn etdi. Amma unutdular ki, aradan 30 il vaxt keçib. Unutmuşdular ki, o zaman Qarabağ və digər işğal olunmuş ətraf ərazilərdə əliyalın əhaliyə divan  tutmaqla, daxildə ixtişaşlar yaratmaqla psixoloji təzyiq göstərərək insanlarda inamsızlıq formalaşdırmaqla yerlərindən, yurdlarından didərgin salıb, torpaqlarımıza sahiblənmişdilər. Bu gün də elə bildilər ki, istədiklərini əldə edəcəklər. Amma  təəssüf... Artıq bu həna o hənadan deyil! Ola da bilməz. Çünki artıq müstəqilik, qüdrətliyik. Bu dava o davadan da deyil. Ona görə ki, qarşınızda inkişaf etmiş bir ölkə var. Biz nə həmin sovetlərdən qalan, onların asılılığında əzilən, iqtisadiyyatı məhv olmuş bir  ölkəyik, nə də ki həmin silahsız, ordusuz xalq! Biz indi öz qərarlarını özü verməyi bacaran, öz iqtisadiyyatına, enerji potensialına güvənən, inkişaf edən və yüksələn demokratik bir ölkəyik. Azərbaycanın güclü lideri, ətrafında sıx birləşib onu dəstəkləyən xalqı var. Təəssüf ki, ikili standartların nəticəsində bu dəfə də dünyanın böyük gücləri savaşı qınamaqla, tərəflərə eyni çağırışı etməklə, hələ də işğalçıya öz bədbin niyyətlərindən əl çəkmək üçün təsir etmirlər. Təkcə bu faktlar bəs edir ki, biz başa düşək: bu işdə ermənilər özbaşına deyil. Onların güvəndikləri, arxalandıqları var. Ermənilərin 30 ildir, yad torpağında əyləşməsi həm də BMT-nin məlum 4 qətnaməsinin hələ də yerinə yetirilmədiyini göstərir.

Ölkə Prezidenti cənab cənab İlham Əliyev baş verənlər haqqında xalqa müraciət etmiş, ardınca Təhlükəsizlik Şurasının iclasında çıxış edərək demişdir: ***"Bildiyiniz kimi, bu gün səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribat nəticəsində itkilərimiz var, həm mülki əhali, həm də hərbçilər arasında. Bu, bir daha onu göstərir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir. Səhər tezdən məlumatı alan kimi, mən Müdafiə naziri, digər aidiyyəti qurumların rəhbərləri ilə əlaqə saxladım, müvafiq göstərişlər verdim və bu göstərişlər əsasında hazırda Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlamışdır. Bildirməliyəm ki, Ermənistanın hərbi təxribatı planlaşdırılmış təxribatdır. Onlar bu təxribata uzun müddətdir ki, hazırlaşırdılar. Bizdə olan operativ məlumat onu göstərirdi ki, Ermənistan bizə qarşı yeni müharibəyə başlamaq fikrindədir. Mən bu məsələ ilə bağlı artıq son bir həftə ərzində bir neçə dəfə həm televiziya kanallarında müsahibəmdə, eyni zamanda BMT kürsüsündən çıxış edərkən öz fikirlərimi bildirmişdim və demişdim ki, təcavüzkar dövlət dayandırılmalıdır. Onlar yeni müharibəyə hazırlaşırlar".***

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə məlum hadisələrlə bağlı telefon danışığından sonra sosial şəbəkələrdəki səhifəsində etdiyi paylaşımda qeyd edib ki, telefon danışığı zamanı bacarıq və qətiyyətinə bir daha şahid olduğum Azərbaycan Prezidenti, qardaşım İlham Əliyevə də bildirdiyim kimi, Türkiyə "bir millət, iki dövlət" anlayışı ilə azərbaycanlı qardaşları ilə həmrəyliyini gücləndirməyi davam etdirəcək.

Türkiyə Prezidenti qeyd edir ki, Azərbaycana qarşı yeni hücumlar edən Ermənistan bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bir daha göstərdi. Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır.

Hərbi paltarlarını dəyişib mülki əhaliyə qarışıb qaçan ermənilər, deyəsən, Azərbaycan Ordusundan bu cür gedişat gözləmirdilər. 30 ildir, müharibənin sülh yolu ilə, beynəlxalq hüquqlar çərçivəsində həllini gözləməyimizi yalnış analiz ediblər. Yoxsa elə çoxdan təslim olmuşdular. Onların içinə saldığımız mat qorxusu erməni saytlarında verilən məlumatlarda özünü açıq-aşkar büruzə verir. Məsələn, Qarabağdakı qondarma rejimin rəhbəri  brifinq zamanı deyib: "Talış istiqamətində və cənubda itirilmiş mövqelər var". O, Ermənistan ordusunun ağır itki verdiyini də etiraf edib, baş verənləri indiyə kimi olan ən geniş əməliyyatlar adlandırıb və bildirib ki, yeni ərazilərin də itirilməsi ehtimalı var.

Yerli kanallarla yanaşı, qardaş Türkiyənin televiziya kanalları da gün ərzində bütün məlumatları səsləndirməklə, informasiyaları zamanında yayımlamaqla ölkəmizdə baş verənləri əhalinin və dünya mediasının nəzərinə çatdırır.

Onu vurğulamaq yerinə düşər ki, bu gün blokada şəraitində olan Naxçıvanda da ordumuz istənilən təxribatın qarşısını almağa tam hazırdır. Muxtar respublikamızda Əlahiddə Ümumqoşun Ordunun müdafiə qüdrəti durmadan artırılır, müasir hərbi texnikalarla gücləndirilir, hərbi təlimlərin həyata keçirilməsi diqqətdə saxlanılır. Məlum olduğu kimi, sentyabr ayının 7-si Azərbaycan və Türkiyə respublikaları arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən Naxçıvanda hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirildi. Növbəti birgə təlimlərə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edildi. Bu təlimlər sarsılmaz qardaşlığın göstəricisi olmaqla yanaşı, həm də ordularımızın peşəkarlıq səviyyəsinin artırılmasına öz töhfəsini verdi.

Bəli, bu gün Azərbaycan xalqı öz ordusuna, ordumuz isə xalqına güvənir. Artıq ordumuzun qətiyyətli mübarizəsi nəticəsində Füzuli rayonunun 5, Cəbrayılın isə 2 kəndi,  Murovdağ silsiləsindəki Murov zirvəsi və bir sıra yüksəkliklər işğaldan azad olunub. Çox çəkməyəcək ki, düşmən tapdağı altında qalmış digər torpaqlarımızı da azad edəcəyik. 1994-cü ildə bağlanan atəşkəs artıq neçə ildir ki, onlar tərəfindən pozulurdu. Hər zaman onlara sülh yolu ilə torpaqlarımızı tərk etmək fürsəti vermişik. Amma onlar bunu anlamadılar. Biz də onların başa düşdüyü dillə, başladıqları ədalətsiz müharibəyə haqq savaşımızla cavab verdik. Çünki 1 milyonluq məcburi qaçqın və köçkünümüzün torpaqlarını özlərinə qaytarmağın zamanı çoxdan gəlib. Biz 30 ildir ki, alınan o torpaqlara həsrət qalmışdıq. Bu həsrət isə, öz növbəsində, bizi çox gücləndirib, daha qəzəbli edib.

İndi biz "Yalan ayaq tutar, amma yeriməz", "Özgə atına minən tez düşər" atalar sözlərinin hikmətini yaşayırıq. Zəfərin yaxınlaşdığı günün ətrini havadan alırıq. Torpaqlarımıza qayıdacağımız günün müjdə xəbərini səbirsizliklə gözləyirik. Ona görə ki, bizim ***"Qarabağ Azərbaycandır!"*** – deyən qətiyyətli, vətənsevər, uzaqgörən Prezidentimiz var. Bu gün bütün gücümüzlə haqqımız olanı alırıq. Çünki xalqımız illərdir, cəbhə bölgəsində yaşananlara haqlı olaraq qəzəblidir, haqqımız olanı almaq zamanı çoxdan yetişib. Haqqımız mübarək, Azərbaycan qəhrəmanı! Yenilməz gücün fəlsəfəsini düşmənlərə göstərin, ərən ruhlu, mərd oğullarımız! Qüdrətin dillərə dastan, əzmin düşmənə üsyan! Növbəti yazımız Qarabağın işğaldan azad olması ümidi ilə...

**Türkan HÜSEYNLİ**

# "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

*Sentyabrın 27-də saat $6^{00}$ radələrində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması ölkəmizə və xalqımıza qarşı növbəti böyük təxribatın daha bir göstəricisidir.*

Artıq səhər saatlarından etibarən ordumuz bütün cəbhəboyu arsenalında olan qüvvə və vasitələrdən istifadə edərək əks-hücum əməliyyatlarına başlayıb. Hazırda da düşmənə layiqli cavab verilir, sarsıdıcı zərbələr vurulur. Proseslərin gedişində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev televiziya ilə xalqımıza canlı yayımla müraciət etdi. Ali Baş Komandan dedi ki, ***"Bu gün səhər bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutub. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər var, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr***



***nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır".***

Prezident müraciəti zamanı ordumuzun yetəri gücə və qüvvəyə malik olduğunu, istənilən hücum əməliyyatını uğurla başa çatdıracağına əminliyini ifadə etdi və bir daha bildirdi ki, ***"Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"***

Düşmənə endirilən sarsıdıcı zərbələr davam edir, onun zirehli texnikası və şəxsi heyəti sıradan çıxarılır. Azərbaycan Ordusunun bölmələri cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl və Murovdağ istiqamətlərində Ermənistan qoşunlarının işğalı altında olan vacib yüksəkliklər azad edilib. Raket-artilleriya qoşunları və aviasiya vasitələri düşmənin komanda məntəqələrinə zərbələr endirir, manevr edən çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini məhv edirlər. Bütün cəbhəboyu şiddətli döyüşlər gedir. Düşmən ard-arda öz döyüş itkilərini açıqlayır.

Bəli, bu, son 30 ildə torpaqlarımızı işğalda saxlayan, xalqımıza qarşı son 2 əsrdə soyqırımı və terrorlar törədən ermənilərə tarixi cavab və zərbədir. Əlbəttə, "dua etməklə donuz darıdan çıxmaz" tezisi əsrlərdir, öz təsdiqini tapmış məfhumdur. Məhz buna görə də, bu gün xalqımız və ordumuz bir yumruq kimi birləşərək ruhunu, ürəyini, canını, qanını ortaya qoyaraq ayaqdadır. Sülhə gəlməyən Ermənistanla öz dili ilə danışır. Budur, bizim xalqımızın birliyi, bərabərliyi, Vətən uğrunda sarsılmaz mübarizəsi.

İndi hər kəs Azərbaycan üçün can verməyə, qan tökməyə hazır və müştaqdır! Vətən uğrunda milli mücadilə məhz budur: "Xalq, ordu, dövlət birliyi!"

*Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,*
*Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.*
*Sənin öz dövlətin, öz millətin, öz cəddin var*
*Vətən uğrunda ölənlər ölümündən doğular.*
*Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik,*
*Biz Vətən naminə ölsək, dirilərdən diriyik!*

***Qoy qələbə bayrağımız, tezliklə Şuşaya, Xankəndinə sancılsın!***

**Sahil TAHİRLİ**

# Rəyasət Heyətinin iclasında bir sıra mühüm məsələlər müzakirə olunub

*AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin növbəti iclası keçirilib.*

Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib.

Sonra bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nuray Əliyeva "Naxçıvan dialekt və şivələrinin öyrənilməsi məsələləri" mövzusunda məruzə ilə çıxış edib. Alim Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli mədəni xəzinəsi olan dialekt və şivələrin öyrənilməsi, yenidən hərtərəfli, dərindən tədqiqi istiqamətində həyata keçirilən mühüm tədbirlərdən danışıb. Qeyd edib ki, Naxçıvan Bölməsində Naxçıvanın dialekt və şivələri tamamilə yeni aspektdə, müasir dövrün tələbləri baxımından öyrənilib, tədqiqat işlərinin nəticələri monoqrafiya və kitablarda, elmi məqalələrdə əksini tapıb. Vurğulanıb ki, həm ekspedisiya, həm də fərdi yolla aparılan araşdırmaların nəticələrinin ölkəmizlə yanaşı, xarici ölkələrdə işıq üzü görməsi dialekt və şivələrimizin öyrənilməsi, dünyada təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Sonra bölmənin doqquzaylıq hesabatı ilə bağlı Elm və təhsil şöbəsinin müdiri, aqrar elmləri üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov məlumat verib.

Gündəliyə çıxarılan növbəti məsələ 2020-2021-ci illər üçün payız-qış mövsümünə hazırlığın vəziyyəti ilə bağlı olub. Bölmənin İnzibati təsərrüfat şöbəsinin aparıcı mütəxəssisi İlham Cəfərov bu barədə iştirakçılara məlumat verib. O, bölmənin elmi-tədqiqat institutlarında su, qaz, işıq sisteminin texniki baxışdan keçirildiyini, hər hansı ciddi problemin olmadığını və bu il də payız-qış mövsümünə tam hazır olduqlarını bildirib.

Tədbirdə elmi katib, filologiya üzrə fəlsəfə doktoru, dosent Rəşad Zülfüqarov bölmənin elmi-tədqiqat müəssisələrinin şöbə və laboratoriyalarına vakant vəzifələri tutmaq üçün müsabiqə elanının vəziyyətini diqqətə çatdırıb. Bildirib ki, elanla bağlı 30 yerə 13 nəfər müraciət edib.

İclasda bir sıra kadr və cari məsələlərə baxılıb.

**AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti**

***Hər kəsin Vətən adlı bir dünyası var. Bəlkə, elə buna görə də dünyada hər şeyi zövqə, imkana görə dəyişmək olar, bircə Vətəndən başqa... Vətən tale yazısıdır, Vətən bəşər övladının şanı, şərəfi, qeyrəti, namusudur... Bütün sevinclərimizin əzəli də ona bağlıdır, axırı da... Mənim də Vətən adlı dünyam canım qədər sevdiyim Azərbaycandır. Böyüyüb boya-başa çatdığım yurdum isə bol günəşi, saf suyu, təmiz havası ilə gözoxşayan gözəlliklər məskəni Naxçıvandır. Naxçıvanım!.. Əlincə qeyrətli, Gəmiqaya sirli, Əshabi-Kəhf möcüzəli, Möminə xatın şöhrətli qədim diyarım...***



# Əsl Vətən sevgisi onu gözəlləşdirmək, inkişaf etdirməkdir

Ana Vətənim Azərbaycanın ondan ayrı düşmüş ayrılmaz parçasıdır Naxçıvan!.. Dünya şöhrətli siyasi xadim, ulu öndərimiz Heydər Əliyevin, Vətən həsrətli Heyran xanımın, maarif fədaisi Məhəmməd Tağı Sidqinin, romantik şair Hüseyn Cavidin, ölməz sənətkar Cəlil Məmmədquluzadənin, tarixi romanlar müəllifi Məmməd Səid Ordubadinin, böyük kimyaçı-alim Yusif Məmmədəliyevin və neçə-neçə adını çəkmədiyim böyük şəxsiyyətlərin Vətənidir Naxçıvan!..

Mən sənin Batabat gölündəki möcüzəli "Üzən ada"nı, duz dağındakı "Büllur sarayı"nı, Darıdağ şəfa bulağını, min bir dərdə dava olan mineral sularını, yayın od ələyən günlərində ilin dörd fəslini başına cəm eləyən Ordubadın "Göygöl"ünü, milli ruhumuzu özündə yaşadan "Şərur yallısı"nı göz önünə gətirdikcə gözümdə daha da gözəl və doğma görünürsən, ulu diyarım...



Qeyri-adi gözəlliyə, təbiətə, zəngin tarixə, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan dünyada yeganə məkandır ki, XII əsrdə qadının şərəfinə abidə ucaldılıb burada. "Möminə xatın türbəsi" adlanan bu möhtəşəm məqbərə bu gün də Naxçıvanın rəmzi sayılır. Qarabağlar türbəsi, Buzxana, Əlincə qalası, İmamzadə kompleksi, Şərq hamamı, Xan evi, Yusif Küseyir oğlu türbəsi, Aza körpüsü milli memarlıq inciləri kimi, bu gün də qorunub yaşadılmaqdadır. Naxçıvan xalqımızın tarixində və taleyində mühüm rol oynayan bir məkandır. Əbəs yerə yurdumuzun bu qədim və ulu diyarını "Nəqşi-cahan" – dünyanın bəzəyi adlandırmayıblar. Dərbənddən Bakıya, oradan da Qarabağa çatan yollar Zəngəzur vasitəsilə Naxçıvandan keçərək İrəvana və Tiflisə, Qarsa və Ərzuruma qədər uzanıb gedib.

### *Dünənlə bu günün vəhdəti*

Müdriklərdən birinin belə bir deyimi var. Dünənini xor baxsan, gələcək səni yarğılayar. Bu, doğrudan da, belədir. Ancaq naxçıvanlılar dünəni necə qoruyublarsa, bu günün də qədrini bilib, firavan gələcək qururlar.

Nur üzlü, al şəfəqli məmləkətimin seyrindən doymaq olmur. Necə xoşbəxt vətəndaşlarıq ki, bu məmləkətdə böyüyüb yaşamaq məhz bizim qismətimizə düşüb. Necə xoşbəxtik ki, qanlı-qadalı günləri geridə qoyub, xoş işıqlı, nur üzlü bu diyarda günün batmasını və oyanmasını seyr edə bilirik. Vaxtilə öz nefti ilə dünyaya həyat verən bir ölkənin doğmadan-doğması Naxçıvan zülmətin pəncəsində, qaranlıqda qalmışdı. Ancaq elə bir dövr gəlib çatdı ki, bu diyarın xalqsevər rəhbəri, qədirbilən oğulları, yurdsevər vətəndaşları zülmətə, qaranlığa qarşı mübarizəyə başladı, bu yolda böyük zəhmətlər, əziyyətlər çəkildi və nəticədə, Naxçıvan gecələri nur işığına boyandı. Elə burada gözəl bir şeirin misralarını xatırlayıram:

*Qocaman çinarlar durub yan-yana,*
*Köksündən zəhmətin xoş ətri saçır.*
*Dönübdür şəhərim cənnətməkana,*
*Baxdıqca göz gülür, könül dil açır.*

Bəli, qədim diyarımın hər qarışı göz oxşayır, sanki dil açıb danışır. Tarix Naxçıvanı, Naxçıvan da tariximizi yaşadır. Naxçıvan yaşanan tarixdir. Ulu öndərimiz Heydər Əliyevin sözləri ilə desək: ***"Naxçıvan Azərbaycanın ən qədim diyarlarından biridir, çox zəngin tarixə malik olan Azərbaycanın bir hissəsidir, qədim tarixi olan Azərbaycan torpağıdır".***

### *Arzularımın diyarı...*

Hələ məktəbə getdiyim ilk illərdə arzu edərdim ki, hər cür şəraiti olan məktəblərdə təhsil alaq, geniş küçələrdə addımlayaq, gül-çiçəyə qərq olmuş meydanlarda oynaya biləк. Bu arzular, uşaq xəyallarımdakı niyyətlər çox keçmədi ki, gerçək oldu. Bəli, bu gün bu şəhərdə həyat qaynayır, coşqun yaşam tərzi bərqərar olunub. Yollar, küçələr isə qurub-yaratmağa tələsən insanlarla doludur. Müasirliyi ilə qədimliyini özündə əks etdirən binalar, səkilər, rahat yollar qurub-yaratmaq əzmi ilə döyünən ürəklərin, bacarıqlı əllərin məhsuludur. Uzun illər blokada şəraitində qalmış bir məmləkətin qısa zaman kəsiyində bu qədər inkişaf edəcəyi heç kimin ağlına belə, gəlməzdi. Artıq bu, gerçəklikdir, günümüzün reallığıdır.



İndi Naxçıvan, Azərbaycanın tacı olan bu tarixi məkan özünün yeni həyatını yaşayır. Mədəniyyət və istirahət parkları, əyləncə və istirahət mərkəzləri, Bazar gölü, "Saat Meydanı" turistik istirahət mərkəzi, Uzunoba ailəvi istirahət mərkəzi, kinoteatrlar, kafe və restoranlar. Küçələr boyu əkilmiş yamyaşıl ağaclar insanların əhval-ruhiyyəsini oxşayır. Hələ ətrafa xoş ətir saçan gül-çiçəklər... Bütün bunların hamısı blokada şəraitində yaşayan Naxçıvanı tanınmaz dərəcədə dəyişdirib.

Ümummilli liderimiz Heydər Əliyev doğma Azərbaycanımız haqqında, Naxçıvan haqqında düşünür və deyirdi: ***"İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarımız arzularımız yerinə yetirilsin".***

Ulu öndərin çox sevdiyi və bir vaxtlar çətin iş rejimində çalışdığı şəhərdə bu gün hər şey tanınmaz dərəcədə yenilənib. Bu, ilk növbədə, ümummilli liderimizin ideyalarının təntənəsidir, onun quruculuq yolunu inamla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin muxtar respublikaya göstərdiyi qayğının bariz nümunəsidir. Bu təntənə müasir Naxçıvanın gerçək simasıdır.

İndi bu şəhəri seyrə çıxan hər bir vətəndaş iftixarla "Mən bu şəhərin sakiniyəm" deyir. Gözəl bir şeirdə deyildiyi kimi:

*Şəhərim çıraqban, kəndim çıraqban,*
*Kəhkəşan sinəmdən nur alsın deyir.*
*Onun gecəsinin işıqlarından*
*O tayın gündüzü işıq istəyir.*

### *Yaşıllıqlar məskənidir məkanım...*

Bu gün şəhərimiz yaşıl örtüyə bürünüb. Yaşıllıqları ötən illərlə müqayisə belə, etmək mümkünsüzdür. Bu barədə düşünərkən balaca ikən yaddaşıma yazılan çətin günlər göz önümdə canlanır. Qışda soyuqdan qorunmaq üçün şəhərimizdə kimsəsiz, qərib kimi görünən beş-on ağacı kəsib istisinə qızındığımız, yayda isə "Kaş ki həmin ağaclar qalaydı, kölgəsində sərinlik tapardıq", – dediyimiz vaxtları indi ürəkağrısı ilə xatırlayıram. Muxtar respublikamızın yaşıl sərvətinin dağıdılmasından narahat olan və onu qorumağa çağıran ulu öndərimizin təbiəti qorumaqla bağlı çağırışları muxtar respublikanın əhalisi üçün bir həyəcan təbili oldu. Bu çağırışa elliklə qoşulmaq, ona səs



vermək, qırılıb-tökülənlərin, dağıdılanların əvəzini qaytarmaq lazım idi. Ancaq necə? Bu çətin işin öhdəsindən gəlmək mümkün idimi? Axı muxtar respublikada yaşıllıqların istismarı bir yana dursun, iqtisadi tənəzzül də bir tərəfdən insanların əl-qolunu bağlamış, sabaha olan ümidlərini puça çıxarmışdı. Belə bir çətin məqamda ulu öndər Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi köməyə gəldi. Həyat yavaş-yavaş öz axarına düşməyə başladı. Yaşıllaşdırma ilə bağlı layihələrin həyata keçirilməsinə böyük önəm verildi. Hər il yol kənarlarına yüzlərlə ting basdırıldı. Şükürlər olsun ki, o ağrılı, qadalı günlər geridə qalıb.

Yaşıllıq ərazilərimiz ilbəil artırılır, meşə-bərpa işləri aparılır. İlin bütün fəsillərində yaşıl libaslı zəhmətkeş bağbanları şəhərimizin gəzməli-görməli yerlərində mövsümə uyğun işlər apararkən görmək olar. Bu xeyirxah tədbirlər nəticəsində Naxçıvanın siması gündən-günə gözəlləşir. Bu diyara üz tutan qonaqlar da məhz bu gözəllikdən zövq alırlar.

### *Aydın məram, konkret hədəf*

Qısaca bunu deməliyəm ki, Vətənə, yurda bağlı əsl rəhbər olan yerdə həyatın məcrası da düzgün istiqamətə yönəlir, insanlar yolundan sarpmır, sözlə işin vəhdəti təmin edilir, nizam-intizam şüurlu olaraq varlığımıza hakim kəsilir. Bütün bunlar isə sürətli inkişafa dinamik xarakter verən başlıca şərtdir. Çalışmaq və yenə də çalışmaq bugünkü həyatımızın alternativsiz qayəsidir. Atalar yaxşı deyib: "Halva-halva deməklə ağız şirin olmaz". Gərək arzusunda olduğun məqsədə çatmaq üçün qol çırmayıb iş görəsən. Dünya şöhrətli siyasətçi Heydər Əliyevin idarəetmə məktəbini keçən, onun dövlətçilik xəttinin incəliklərini mənimsəyən, muxtar respublikanı dərindən tanıyan, potensialını və problemlərini yaxşı bilən, təşəbbüskar, coşqun enerjili, aydın proqramlı muxtar respublika rəhbəri öz məramnaməsini hələ 25 il öncə belə ifadə etmişdi: ***"Prezident Heydər Əliyevin dövlətçilik platformasına sadiq qalacağam, onun bu böyük etimadını layiqincə doğrultmağa çalışacağam".***

*Bəli, aydın məram, konkret hədəf göz qarşısındadır. Özünün intibah dövrünə qədəm qoyan Naxçıvanda illərdir ki, yeni həyat başlayıb. Cəmiyyət burada bir yumruq halında birləşib. Bu birlik hesabına Naxçıvan aydan-aya deyil, gündən-günə dəyişir, gözəlləşir, inkişaf edir. İnkişaf və yeniləşmə istiqamətində keçilmiş şərəfli yolun dərsləri, dövlətçilik, quruculuq, idarəetmə sahəsində toplanmış zəngin təcrübə Azərbaycanın bu qədim və həmişəcavan diyarının sabahkı üfüqlərinə də gur işıq salır.*

**Nuray ƏSGƏROVA**
***jurnalist***

# Bələdiyyə orqanlarına metodik köməklik göstərilir

Qanunvericiliyin tələbləri əsasında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi muxtar respublika ərazisində fəaliyyət göstərən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti təşkil edir və onlara metodoloji yardım göstərilməsi sahəsində tədbirləri davam etdirir. Bu məqsədlə bələdiyyə sədrlərinin və üzvlərinin iştirakı ilə maarifləndirmə tədbirləri keçirilir, eləcə də onlar zəruri metodik vəsaitlərlə təmin olunurlar. Bu sahədə görülən işlərin davamı olaraq növbəti tədbir Culfa rayonunda təşkil edilib. Rayon üzrə fəaliyyət göstərən bələdiyyələrin kargüzarlıq sənədlərinə baxış olub, görülən işlər barədə onlara hüquqları izah edilib, lazımi metodik tövsiyələr verilib. Eyni zamanda bələdiyyə sədrlərinə "Metodik sənədlər toplusu", "Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin səmərəli təşkili və yerquruluşu işlərinin aparılması məqsədilə tədbirlərin görülməsinə dair", "Qəbiristanlıqların saxlanılması və idarə olunması haqqında yaddaş kitabçası" və "Bələdiyyə üzvünün yaddaş kitabçası" adlı metodik vəsaitlər təqdim olunub.

Tədbirdə "Ədliyyə könüllüləri"nin də iştirakı təmin edilib. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar olaraq nazirliyin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə tələbələri də metodik köməkliyin göstərilməsi prosesinə cəlb olunublar. Onlar bələdiyyə sənədlərinə baxış keçirib, bələdiyyələrin iş fəaliyyətini əyani öyrəniblər. Tələbələr bələdiyyələr tərəfindən hazırlanan protokol və qərar layihələri ilə bələdiyyə iclasının çağırılması qaydası, əhali ilə görüşün qaydaları, daxil olan sənədlərin qeydə alınması, bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsi və digər məsələlər barədə ətraflı məlumatlandırılıblar.

Tədbirdə suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 728